# DÖVLƏT İMTAHAN MƏRKƏZİ
# 2026/2027-ci TƏDRİS İLİ ÜÇÜN REZİDENTURAYA QƏBUL ELAN EDİR

**1.** Rezidenturaya qəbul "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları"na (bax: "Rezidentura" jurnalı, 2026, №1, səh. 2) uyğun olaraq Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən aparılır. Rezidenturaya qəbul olmaq hüququna Azərbaycan Respublikasında əsas (baza ali) tibb təhsili almış şəxslər və ya xarici ölkələrdə təhsil almış və ali tibb sahəsində müəyyən edilmiş qaydada xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyaları tanınmış şəxslər (bundan sonra – namizədlər) malikdirlər.

**2. Qəbul imtahanında iştirak etmək üçün ərizə qəbulu internet vasitəsi ilə aşağıdakı qaydada aparılır.**

**Namizəd**

- ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra (bax: "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası) imtahanda iştirak etmək üçün tələb olunan məbləği kabinetindəki hesabına əlavə edir;
- tələb olunan məbləği hesabına əlavə etmək üçün təqdim olunan ödəniş üsullarından (bax: epayment.dim.gov.az) istifadə etməklə 16-rəqəmli ödəniş kodu əldə etməlidir;
- *imtahanın I mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) 1-ci cəhdində iştirak etmək üçün* "Şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə *2026-cı il aprelin 13-dən 20-dək* Mərkəzin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olub, "Namizədin elektron ərizəsi" formasını doldurur və təsdiq edir (etdirir);
- *imtahanın I mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) 2-ci cəhdində iştirak etmək üçün* "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə *2026-cı il mayın 25-dən iyunun 4-dək* Mərkəzin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olub, "Namizədin elektron ərizəsi" formasını doldurur və təsdiq edir (etdirir);

Ətraflı məlumat jurnalın 4-8-ci səhifələrində və eservices.dim.gov.az/erizerez/erize səhifəsindəki aktual keçidlərdə verilmişdir.

**2.1.** Rezidenturaya qəbul üzrə müsabiqədə iştirak etmək üçün Azərbaycan Respublikasında yerləşən ali təhsil müəssisələrini bitirmiş və ya cari tədris ilində bitirən, qəbulun I mərhələsində – baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak edib "məqbul" alan və rezidenturaya qəbul olmaq hüququ əldə etmiş Azərbaycan Respublikası vətəndaşı olan bütün namizədlər Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə Mərkəzin rəsmi internet saytında "Namizədin elektron ərizəsi"ni dolduraraq şəxsən təsdiq etməlidirlər.

Rezidenturaya qəbulun I mərhələsində iştirak edib "məqbul" alan namizədlərdən cari ildə yenidən I mərhələ üzrə imtahanda iştirak etmək istəyənlər "Namizədin elektron ərizəsi"ndə müvafiq qeydiyyat aparmalıdırlar. Müsabiqə zamanı I mərhələ üzrə imtahanda bir neçə dəfə iştirak etmiş namizədin daha yüksək olan nəticəsi (balı) nəzərə alınacaqdır.

Rezidenturada təhsil alanlara rezidentura təhsilindən imtina etmədən, eləcə də əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (IV-V kurslarda təhsil alan) tələbələrə də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmək hüququ verilir. Bu kateqoriyalara aid olan şəxslər də Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə Mərkəzin rəsmi internet saytında "Namizədin elektron ərizəsi"ni dolduraraq şəxsən təsdiq etməlidirlər.

Xarici ölkələrdə ali təhsil alan və əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələrə də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmək hüququ verilir. Bu kateqoriyaya aid olan şəxslər Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə Mərkəzin rəsmi internet saytında "Namizədin elektron ərizəsi"ni doldurmalı və əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmələri haqqında ali təhsil müəssisəsi tərəfindən verilmiş rəsmi arayışın notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini Sənəd Qəbulu Komissiyasına (bundan sonra – SQK-ya) şəxsən təqdim etməklə ərizələrini təsdiq etdirməlidirlər (ünvan: Bakı şəhəri, Həsən Əliyev küçəsi, 299).

SQK şənbə, bazar və bayram günləri istisna olmaqla saat 10:00-dan 17:00-dək fəaliyyət göstərir.

Mərkəzin informasiya sistemlərində məlumatları yetərli olmayan namizədlər Mərkəz tərəfindən müəyyən edilmiş müddət ərzində Mərkəzin rəsmi internet saytında "Namizədin elektron ərizəsi"ni doldurmalı və aşağıdakı sənədlərin əslini Mərkəz tərəfindən yaradılmış SQK-ya şəxsən təqdim etməklə ərizələrini təsdiq etdirməlidirlər:

**2.1.1.** Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər pasportlarını və (və ya) icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və ya icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;

**2.1.2.** əsas (baza ali) tibb təhsili haqqında sənədi və ona əlavəni;

**2.1.3.** xarici ölkələrdə ali təhsil almış şəxslər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını təsdiq edən sənədləri;

**2.1.4.** xarici ölkələrdə ali ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçmiş Azərbaycan Respublikasının vətəndaşları olan həkimlərə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən verilən "Tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması barədə şəhadətnamə"ni.

**2.1.5.** qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

**2.2.** Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan), bu mümkün olmadığı hallarda ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olmadıqda əcnəbilər və xarici ölkələrdə təhsil almış şəxslər 2.1-ci bənddə qeyd olunan sənədlərlə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini də SQK-ya təqdim edirlər.

**2.3.** Ərizələrin qəbulu zamanı dövlət sifarişi əsasında rezidentura təhsili almaq istəyən namizədlər rezidenturanı bitirdikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə razılaşdırmaqla müəyyən edilən tibb müəssisələrində 3 (üç) il müddətində əmək fəaliyyəti ilə məşğul olacaqları barədə məlumatlandırılırlar. Bu namizədlər elektron ərizəni təsdiq etdikləri andan qeyd edilmiş öhdəliyə razılıq vermiş hesab olunurlar.

**3.** Əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilir:

– baza fənləri üzrə biliklərin qiymətləndirilməsi;

– ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi.

**3.1.** baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının (I mərhələ) 2026-cı il mayın 3-də (1-ci cəhd), təkrar imtahanın (2-ci cəhd) 2026-cı il iyunun 21-də, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının isə (II mərhələ) 2026-cı il avqustun 9-da keçirilməsi planlaşdırılır.

**3.1.1.** İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan (**40 və daha çox bal toplayan**) və rezidenturaya qəbul olmaq hüququ olan namizədlər buraxılırlar. İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılmış namizədlər tələb olunan məbləği "Şəxsi kabinet"lərinin hesabına əlavə edib Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə qeydiyyatdan keçməlidirlər.

Azərbaycan Tibb Universitetinin **Hərbi tibb fakültəsinin məzunları** rezidenturaya qəbul imtahanının ikinci mərhələsində iştirak etmək üçün müvafiq fakültəyə müraciət etməlidirlər. Müraciət edənlərin siyahısı Mərkəzə təqdim olunduqdan sonra, onlar tələb olunan məbləği "Şəxsi kabinet"lərinin hesabına əlavə edib Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə qeydiyyatdan keçməlidirlər.

İmtahanlarda iştirak üçün qeydiyyatdan keçməyən namizədlər imtahana buraxılmırlar.

Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunur. Hər iki mərhələdə namizədin hər bir test tapşırığına düzgün cavabı 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar namizədin imtahan nəticəsinə (yekun balına) təsir göstərmir.

**3.2.** Hər bir mərhələdə imtahan suallarının cavablandırılmasına **2 saat 30 dəqiqə** vaxt ayrılır.

**3.3.** Qəbul imtahanları Bakı və Naxçıvan şəhərlərində keçirilir.

**3.4.** İmtahanlarda iştirak etmək üçün namizəd imtahanlardan əvvəl 3 gün ərzində "Namizədin imtahana buraxılış vərəqəsi"ni **eservices.dim.gov.az/brxv** internet səhifəsindən çap edib götürür.

***İmtahanın keçirilmə vaxtı və yeri "Namizədin imtahana buraxılış vərəqəsi"ndə göstərilir. Namizədlər imtahanda iştirak etmək üçün aşağıdakı sənədləri mütləq gətirməlidirlər:***

- ***imtahan gününə müvafiq olan "Namizədin imtahana buraxılış vərəqəsi"ni;***
- ***şəxsiyyəti təsdiq edən sənədin əslini.***

**4.** Müsabiqəyə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından **50 və daha çox bal** toplamış namizədlər buraxılırlar.

**4.1.** Müsabiqəyə buraxılan namizəd Mərkəz tərəfindən müəyyən olunan müddətdə "Rezidentura üzrə ixtisas seçimi cədvəli"nə əsasən, bitirdiyi əsas (baza ali) tibb təhsili istiqamətinə müvafiq olan ixtisaslardan istəyinə uyğun olanlarını seçərək, onların kodlarını elektron ərizəsindəki ixtisas seçimi formasına istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir (bu barədə əlavə məlumatlar "Rezidentura" jurnalının 3-cü nömrəsində veriləcəkdir).

**5.** Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi qəbul olunur və namizəd topladığı bala əsasən müsabiqədən keçdiyi ilk ixtisasa yerləşdirilir.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox namizədi fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınır:

- əsas (baza ali) tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);
- baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

**5.1.** Ümumi balı eyni olan iki və daha çox namizədi bir-birindən fərqləndirmək mümkün olmadıqda onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

**5.2.** Müsabiqənin nəticələri açıqlandıqdan sonra boş qalan yerlər elan edilir, namizədlər tərəfindən 4-cü bənd nəzərə alınmaqla ixtisas seçimi həyata keçirilir və həmin yerlərə müsabiqə yolu ilə yerləşdirmə aparılır.

**6.** Hər hansı bir ixtisasa yerləşdirilmiş namizəd Mərkəz tərəfindən müəyyən olunmuş müddətdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *https://portal.edu.az/* platformasında qeydiyyatdan keçməlidir. Qeydiyyatdan keçmiş namizədlər tələb olunan sənədlərin ***əslini*** qəbul olduğu tibb müəssisəsinin tabe olduğu mərkəzi icra hakimiyyəti orqanına:

- Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul olmuş şəxslər Azərbaycan Respublikası Müdafiə Nazirliyinə;
- Naxçıvan Dövlət Universitetinə qəbul olmuş şəxslər Naxçıvan MR Səhiyyə Nazirliyinə;
- Azərbaycan Tibb Universitetinə və digər klinik bazalara qəbul olmuş şəxslər isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə

***şəxsən*** təqdim etməklə mülki müqavilə bağlamalıdırlar.

Namizədin müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu namizədlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar və onlar rezidenturaya qəbul olunanlar siyahısından xaric edilirlər.

**7.** Rezidenturaya qəbul üzrə müsabiqə və onun nəticələri ilə bağlı namizədlərin müraciətlərinə baxılması üçün Mərkəz tərəfindən Apellyasiya Komissiyası yaradılır.

**8.** Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər Mərkəz tərəfindən müəyyən olunan müddətdə Mərkəzin saytında yerləşdirilən elektron ərizəni doldurmaqla qeydiyyatdan keçməlidirlər. Apellyasiya prosesi telefon əlaqəsi və ya ZOOM proqramı vasitəsilə aparılır. Bir namizədin müraciəti üzrə ən çox 15 dəqiqə müddətində müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Apellyasiya Komissiyasının qərarlarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

**9.** Namizədin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

- saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;
- imtahana mobil telefon və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə tütün məmulatı gətirmək;
- "İmtahan başlandı!" elan olunan andan imtahanın sonunadək səbəbindən asılı olmayaraq, zalda yerini dəyişmək, gəzişmək, danışmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
- "İmtahan başlandı!" elan olunan andan 1,5 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində imtahan zalından çıxmaq;
- başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab kartını və sual kitabçasını zədələmək, onları nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**10.** Namizədin 9-cu bənddə göstərilən hərəkətlərə yol verməsi halları Mərkəz tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

# REZİDENTURAYA ƏRİZƏ VERƏN NAMİZƏDLƏR ÜÇÜN TƏLİMAT

Mərkəzin elektron xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçinin (abituriyentin, bakalavrın, namizədin) şəxsi kabineti olmalıdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilə bilər. Şəxsi kabineti https://ekabinet.dim.gov.az/ linkinə daxil olmaqla yaratmaq lazımdır. Rezidenturaya qəbul imtahanlarında iştirak etmək üçün namizəd https://eservices.dim.gov.az/erizerez/erize səhifəsinə “Digital Login” və ya “Şəxsi kabinet”in istifadəçi adı və şifrəsi ilə daxil olmalıdır (şəkil 1).




**Şəkil 1.** Giriş.

Açılan səhifədə aktiv və istifadə olunan elektron xidmətlər əks olunur. Müvafiq xidmətin qarşısındakı ”Daxil ol” düyməsi sıxılaraq ərizəyə keçid edilir (şəkil 2).




**Şəkil 2.** İstifadə etdiyiniz xidmətlər.

Ekranda əks olunan səhifədə 3 alt menyu (şəxsi məlumatlar, ali təhsil və imtahan) və status bölməsi yerləşir:

– “Şəxsi məlumatlar” bölməsində şəxsi və əlaqə məlumatlarınız əks olunur (bu sahələrdə dəyişiklik etmək üçün şəxsi kabinetə keçid etmək və müvafiq dəyişikliyi icra etmək lazımdır). Əgər ali təhsil müəssisələrinin əsas (baza ali) tibb təhsili səviyyəsinə qəbul olunduqdan sonra soyad, ad və ya ata adında dəyişiklik olubsa, müvafiq xanalarda dəyişikliklər edilərək, “Yadda saxla” düyməsi sıxılır (şəkil 3);




**Şəkil 3.** Şəxsi məlumatlar bölməsi.

– “Ali təhsil” bölməsində “Əsas (baza ali) tibb təhsili haqqında məlumat verin” düyməsi sıxıldıqda məlumatlarınız “Tələbə-məzun” dövlət elektron məlumat sistemindən (TMMS) (xarici ölkələrdə təhsil alanların məlumatları isə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) müvafiq informasiya sistemindən) sorğulanıb ekranda əks olunur (əsas (baza ali) tibb təhsili haqqında məlumat cədvəldə əks olunmadığı halda namizəd bitirdiyi ali təhsil müəssisəsinə müraciət edib, diplom məlumatlarının TMMS-ə daxil edilməsini tələb etməlidir). “Seç” düyməsini sıxdıqda, açılan pəncərədə əsas (baza ali) tibb təhsili diplomuna aid məlumatlar əks olunur. Ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) xanasının boş olması, ÜOMG-nin TMMS-ə daxil edilmədiyini göstərir. Bu göstərici məlum olmadıqda, həmin xana boş saxlanılmalıdır. Bundan sonra “Yadda saxla” düyməsi sıxılır (şəkil 4 və 5);




**Şəkil 4.** Ali təhsil bölməsi.




**Şəkil 5.** Ali təhsil haqqında məlumatlar.

– İmtahan bölməsinə keçid edilərək, aktiv imtahan qeydiyyatına müvafiq 1-ci cəhd (və ya 2-ci cəhd) imtahanına qeydiyyatdan keçmək üçün şəkildə göstərilmiş müvafiq düymə sıxılır (şəkil 6);




**Şəkil 6.** İmtahana qeydiyyat bölməsi.

Açılan ekranda namizəd imtahanda iştirak edəcəyi əsas (baza ali) tibb təhsili istiqamətini və bölməni seçib "Yadda saxla" düyməsini sıxır (şəkil 7);




**Şəkil 7.** İstiqamət və bölmə seçimi.

**Qeyd**! Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" nəticə əldə etmiş (40 və daha artıq bal toplamış) namizədlər cari ildə qəbul imtahanının 1-ci mərhələsində iştirak edib-etməyəcəkləri haqqında məlumatı qeyd edir.

Ərizənin statusu hissəsində imtahana qeydiyyat ərizəsinin təsdiq olunub-olunmadığı və səhvlər haqqında məlumat qeyd olunur (şəkil 8). "Təsdiq et" düyməsini sıxdıqda ekranda xəbərdarlıq bildirişi açılır. Bu bildirişdə ərizənin təsdiqi üçün tələb olunan vəsaitin şəxsi kabinetin balansından çıxarılmasına razılıq verməklə, namizəd ərizəni özü təsdiq edir;




**Şəkil 8.** Ərizənin təsdiqi bölməsi.

**Qeyd**! Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" nəticə əldə etmiş (40 və daha artıq bal toplamış) və cari ildə qəbul imtahanının 1-ci mərhələsində iştirak etməyəcəkləri haqqında müvafiq məlumatı daxil etmiş namizədlərdən ödəniş tələb olunmur.

Təsdiqlənmiş ərizəni çap etmək üçün "Çap" düyməsi sıxılır. Məxfiliyi təmin etmək və kənar şəxslərin müdaxiləsinin qarşısını almaq üçün ərizə səhifəsinin yuxarı sağ hissəsində yerləşən "Çıx" düyməsi sıxılır.

# NAMİZƏDLƏRİN NƏZƏRİNƏ

1. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan (40 və daha çox bal toplayan) rezidentlər (rezidenturada təhsil alanlar) ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturanı bitirdikdən və ya rezidentura təhsilindən imtina etdikdən sonra buraxılırlar;
2. Əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (IV-V kurslarda təhsil alan) tələbələr də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. İmtahanda iştirak etmək arzusunda olan tələbələr Mərkəz tərəfindən müəyyən olunmuş vaxtda (bax: səh. 1) qeydiyyatdan keçməlidirlər. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan (40 və daha çox bal toplayan) tələbələr ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına yalnız rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən, yəni əsas (baza ali) tibb təhsilini tam bitirdikdən sonra buraxılacaqlar (bax: "Rezidentura" jurnalı, 2026, № 1, s. 2).
3. Xarici ölkələrdə ali təhsil alan və əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (IV-V kurslarda təhsil alan) və baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında "məqbul" nəticə əldə etmiş tələbələr də ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən, tələb olunan sənədləri SQK-ya təqdim etməklə qeydiyyatdan keçdikdən sonra buraxılacaqlar (bax: səh. 1).
4. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan namizədlərin nəticəsi 5 (beş) il müddətində qüvvədə qalır.

## DİQQƏT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsaslanaraq nəzərinizə çatdırmaq istəyirik ki, 2026/2027-ci tədris ili üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı "Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparmaq üçün klinik baza kimi müəyyən edilən müəssisələrin Siyahısı"na daxil edilmişdir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında aşağıdakı mülki ixtisaslar üzrə həkim-mütəxəssis hazırlığının aparılması planlaşdırılır:

7100006 – Dermatovenerologiya

7100010 – Kardiologiya

7100013 – Nevrologiya

7100016 – Oftalmologiya

7100022 – Otorinolarinqologiya

7100033 – Tibbi biokimya

7100043 – Ürək-damar cərrahiyyəsi

7100044 – Yoluxucu xəstəliklər və kliniki mikrobiologiya

Bu ixtisaslar üzrə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında rezidentura təhsili almaq istəyən namizədlər Müdafiə Nazirliyinin daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsi tərəfindən xüsusi yoxlamadan keçməlidirlər. Yoxlamadan keçmək üçün aşağıdakı sənədlərin Mərkəz tərəfindən elan olunacaq müddətdə Müdafiə Nazirliyinin Tibb İdarəsinə təqdim olunması zəruridir:

- şəxsiyyəti təsdiq edən sənədin notarial təsdiq olunmuş surəti;
- tərcümeyi-hal (1 nüsxə çap olunmuş, eləcə də elektron formada);
- 3x4 sm ölçüdə rəngli fotoşəkil.